*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2026 / Cild: 20 Sayı: 1 / 164-169 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2026 / Volume: 20 Issue: 1 / 164-169 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/125/164-169

**Leylan Əsgərova**
Bakı, Azərbaycan
https://orcid.org/0009-0005-9114-2470
sgrovaleylan@gmail.com

# Müəllim şəxsiyyətinin pedaqoji keyfiyyətləri: tələblər və inkişaf perspektivləri

### Xülasə

Müəllimin şəxsiyyətinin pedaqoji fəaliyyətin subyekti kimi formalaşması çoxsaylı sosial, iqtisadi və təhsil amilləri ilə bağlıdır. Müasir təhsil mürəkkəb sosial-mədəni mühitdə müəllimlərin aktual təhsil vəzifələrini məsuliyyətlə həll edə bilən, peşəkar və davamlı olaraq özünüinkişaf edən şəxsiyyətlər kimi formalaşmasını tələb edir. Müəllimin hazırlanması prosesi insan, vətəndaş və mütəxəssis kimi rolların inteqrasiyasını, daxili bütövlüyün və peşəkar davranışın inkişafını nəzərdə tutur. Yüksək ixtisaslı müəllim uşaqlara məhəbbət, pedaqoji fəaliyyətə sevgi, peşə bilikləri, geniş dünyagörüşü, intellektual inkişaf, yüksək mənəviyyat və pedaqoji intuisiya kimi əsas keyfiyyətlərə sahib olmalıdır. Əlavə keyfiyyətlər — ünsiyyətcilik, yaradıcılıq və şən xasiyyət — müəllimin səmərəliliyini artırır. Pedaqoji ustalıq isə müəllimin situasiyaları düzgün qiymətləndirməsi, improvizasiya qabiliyyəti, müşahidəçilik, proqnozlaşdırma və refleksiya bacarıqları ilə müəyyən olunur. Beləliklə, müəllimin peşəkarlığı mədəni dəyərlər, pedaqoji biliklər və praktiki təcrübə əsasında formalaşan çoxfaktorlu, fərdiləşmiş yaradıcı özünüreallaşma prosesidir. Bu keyfiyyətlər müəllimə təkcə uşaqları yetişdirmək deyil, həm də cəmiyyətin davamlı inkişafına töhfə vermək imkanı yaradır. Bu tədqiqatda müəllim şəxsiyyətinin pedaqoji keyfiyyətlərini nəzəri səviyyədə və sistemli şəkildə təsnif edilir. Eyni zamanda, müəllimin peşəkar inkişafı və şəxsiyyət formalaşması sahəsində mövcud yanaşmalara nəzəri töhfə verir.

***Açar sözlər:*** *müəllim şəxsiyyəti, pedaqoji bacarıqlar, peşəkar inkişaf, refleksiya və özünüinkişaf, təhsil və tərbiyə*

**Leylan Askerova**
Baku, Azerbaijan
https://orcid.org/0009-0005-9114-2470
sgrovaleylan@gmail.com

# Pedagogical Qualities of a Teacher's Personality: Requirements and Development Perspectives

### Abstract

The formation of a teacher's personality as an active subject in pedagogical activity is influenced by numerous social, economic, and educational factors. Modern education requires teachers who can responsibly address current educational tasks, demonstrate professional competence, and continuously engage in self-development. The process of preparing a teacher involves integrating the roles of an individual, citizen, and professional while fostering inner integrity and professional behavior. A highly qualified teacher should possess essential qualities such as love for children, passion for teaching, subject-matter expertise, broad worldview, intellectual development, high moral standards, and pedagogical intuition. Additional traits—such as communication skills, creativity, and a cheerful disposition—further enhance effectiveness. Pedagogical mastery is defined by the teacher's ability to accurately assess situations, improvise, observe, predict, and engage in reflective practice. Therefore, professional excellence is a multifaceted, individualized process of creative self-realization, grounded in cultural values, pedagogical knowledge, and practical experience.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

These qualities enable teachers not only to educate children effectively but also to contribute to the sustainable development of society. This study provides a theoretical and systematic classification of the pedagogical qualities of a teacher's personality. At the same time, it offers a theoretical contribution to the existing approaches concerning teacher professional development and personality formation.

***Keywords:*** *teacher personality, pedagogical skills, professional development, reflection and self-improvement, education and upbringing*

## Giriş

Müasir müəllimin rolu yalnız bilik və bacarıq ötürməkdən ibarət deyil, onun şəxsiyyəti, peşəkarlığı və mənəvi inkişafı pedaqoji prosesin mərkəzində dayanır. Sosial-iqtisadi dəyişikliklər, elmi biliklərin sürətlə artması və ümumi təhsil sistemindəki çağırışlar müəllimlərin yeni təhsil paradiqmasına uyğunlaşmasını zəruri edir. Müəllimin şəxsiyyətinin formalaşması onun həm intellektual, həm mənəvi, həm də peşəkar tərəflərinin inkişafına əsaslanmalıdır. Bu prosesdə müəllim insan, vətəndaş və peşəkar kimi öz rolunu harmonik şəkildə birləşdirərək fəaliyyət göstərməli, mürəkkəb pedaqoji və sosial mühitdə özünüinkişafını təmin etməlidir. Yüksək ixtisaslı müəllim yalnız dərs keçən şəxs deyil, eyni zamanda uşaqların şəxsiyyətini formalaşdıran, onların təlim və tərbiyəsində aktiv rol oynayan mədəniyyət daşıyıcısıdır. Müasir pedaqoji yanaşmalar müəllimin özünü inkişaf etdirməsini, yaradıcı və analitik düşüncə qabiliyyətini, eləcə də etik və estetik prinsiplərə sadiqliyini ön plana çıxarır (Ukrop və b., 2018).

**Tədqiqat**

Tədqiqatın məqsədi müəllim şəxsiyyətinin pedaqoji keyfiyyətlərini, onlara qoyulan tələbləri və bu keyfiyyətlərin formalaşma yollarını sistemli şəkildə araşdırmaqdır.

*Tədqiqatın əsas vəzifələrini aşağıdakı kimi sıralamaq olar:*

1. Müasir pedaqoji ədəbiyyat və elmi mənbələr əsasında müəllim şəxsiyyətinə verilən əsas və əlavə keyfiyyətləri müəyyən etmək;
2. Müəllimin peşəkar bacarıqları və pedaqoji ustalığı ilə əlaqədar tələbləri təsnif etmək;
3. Pedaqoji fəaliyyət və şəxsiyyətin inteqrasiyası kontekstində müəllimin inkişaf perspektivlərini analiz etmək;
4. Müasir təhsil sistemində müəllim şəxsiyyətinin formalaşmasına təsir edən amilləri qiymətləndirmək;
5. Tədqiqat nəticələrinə əsaslanaraq müəllim hazırlığında praktik tövsiyələr təqdim etmək.

**Müəllim şəxsiyyətinin pedaqoji keyfiyyətləri və tələbləri**

Müəllimin şəxsiyyətinin pedaqoji fəaliyyətin subyekti kimi formalaşmasının nəzəri əsaslarının işlənməsinə müraciət bir sıra amillərlə əlaqədardır. Sosial-iqtisadi dəyişikliklər, elmi informasiya həcminin kəskin artması və ümumi təhsil sisteminin böhranlı vəziyyəti təhsil məqsədlərinin, vəzifələrinin və məzmununun əhəmiyyətli dərəcədə yenilənməsini zəruri etmişdir. Bu isə pedaqoji təhsilin yeni bir paradiqmasının hazırlanmasını tələb edir. Müəllimin formalaşdırılması prosesi pedaqoji universitetdə insanın şəxsiyyət olaraq fəaliyyətin subyekti olması və onun bütövlüyü prinsipləri əsasında qurulmalıdır (Tunyk, 2025).

Strateji baxımdan müasir pedaqoji təhsilin məqsədi mürəkkəb sosial-mədəni şəraitdə sərbəst orientasiya edə bilən, aktual təhsil vəzifələrinin həlli zamanı məsuliyyətli və peşəkar fəaliyyət göstərə bilən müəllim şəxsiyyətinin inkişafı və özünüinkişafıdır. Bu strategiya təhsilin məzmununun, formalarının və metodlarının müəllimin mənəvi inkişafına, mədəni şəxsiyyət kimi formalaşmasına, humanist dünyagörüşünə, dərin peşəkar biliklərinə və yaradıcı potensialını reallaşdıra bilməsinə yönəlməsini nəzərdə tutur (Kariev və b., 2023).

Müəllim şəxsiyyətinin modelləşdirilməsi zamanı müəllimlə insan, vətəndaş və mütəxəssis arasında müşahidə olunan uyğunsuzluğun aradan qaldırılması əsas məsələ kimi qeyd olunur. Gələcək pedaqoqun şəxsiyyət mövqeyi onun peşəkar fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməlidir. Bu daxili bütövlüyün formalaşması və inkişafı vahid bir prosesdə həyata keçirilməlidir ("Peculiarities of formation of teacher's pedagogical skills and pedagogical techniques", 2025).

Peşəkar pedaqoq — vaxtının böyük hissəsini uşaqların təlim və tərbiyəsinə sərf edən yeganə insandır. Digər böyüklər, uşağın valideynləri də daxil olmaqla, öz peşə problemləri və məişət qayğıları ilə məşğuldur və uşaqlara çox vaxt ayıra bilmirlər. Əgər uşaqların təlimi və tərbiyəsi ilə müəllimlər məşğul olmasaydılar, bir neçə nəsil sonra cəmiyyətin inkişafı dayanardı. Yeni nəsil sosial, iqtisadi və mədəni tərəqqini dəstəkləmək üçün kifayət qədər hazırlıqlı olmazdı (Khalmukhamedova, 2024).

Müasir sivilizasiyalı cəmiyyətdə pedaqoq xüsusi diqqət tələb edən bir fiqurdur və onun yerini kifayət qədər hazırlığı olmayan insanlar tutduqda, ilk növbədə uşaqlar zərər görür; bu zərərlər çox vaxt bərpa olunmur. Bu səbəbdən cəmiyyət elə şərait yaratmalıdır ki, müəllim və tərbiyəçilər sırasında uşaqlarla işləmək üçün intellektual və mənəvi cəhətdən ən hazırlıqlı insanlar olsun. Bu isə heç də hər bir insanın bacara biləcəyi iş deyil (Şahin, 2025).

Gələcək pedaqoqun şəxsiyyətinə bir sıra ən ciddi tələblər irəli sürülür. Bu tələblər arasında əsas — yəni yüksək ixtisaslı müəllim və ya tərbiyəçi olmaq üçün mütləq zəruri olanlar və ikinci dərəcəli — mütləq olmasa da, müəllimi daha səmərəli və təsirli edən xüsusiyyətlər vardır. Əsas və əlavə psixoloji keyfiyyətlər arasında həm bütün dövrlərdə, xalqlarda və cəmiyyətlərdə müəllimə xas olan sabit tələblər, həm də konkret dövrün sosial-iqtisadi inkişaf xüsusiyyətlərindən asılı olaraq dəyişən tələblər mövcuddur (Fernandes et al., 2023).

*Pedaqoqa irəli sürülən əsas və daimi tələblərə aşağıdakılar daxildir (Sims, 2021):*

– uşaqlara məhəbbət;
– pedaqoji fəaliyyətə sevgi;
– tədris etdiyi sahə üzrə xüsusi biliklər;
– geniş dünyagörüşü;
– pedaqoji intuisiya;
– yüksək inkişaf etmiş intellekt;
– ümumi mədəniyyət və mənəviyyatın yüksək səviyyəsi;
– uşaqların təlim və tərbiyəsi üçün müxtəlif metodlara peşəkar şəkildə yiyələnmək.

Bu amillərdən hər hansı biri olmadıqda, uğurlu pedaqoji fəaliyyət mümkün deyil.

Bu xüsusiyyətlərin heç biri anadangəlmə olmur. Onlar sistemli və inadlı əmək sayəsində, pedaqoqun öz üzərində böyük işi nəticəsində formalaşır. Təsadüfi deyil ki, müəllim və tərbiyəçilər çoxdur, lakin bütün vəzifələrin öhdəsindən yüksək səviyyədə gələ bilən istedadlı və parlaq pedaqoqlar olduqca azdır ("Personal characteristics of the teacher in music teaching", 2024).

*Əlavə, lakin müəyyən dərəcədə sabit tələblərə aşağıdakılar daxildir:*

– ünsiyyətcillik,
– artistiklik,
– şən xasiyyət,
– yaxşı zövq və s.

Bu keyfiyyətlər vacibdir, lakin yuxarıda sadalanan əsas keyfiyyətlərdən daha az əhəmiyyətlidir. Müəllim hər bir belə xüsusiyyət olmadan da fəaliyyət göstərə bilər. Əsas və ikinci dərəcəli keyfiyyətlərin cəmi pedaqoqun fərdiliyini təşkil edir və bunun sayəsində hər bir yaxşı müəllim özünəməxsus, unikal şəxsiyyət olur ("Pedaqoji ünsiyyətin formalaşdırılmasında tərbiyəçi müəllimin peşə keyfiyyətlərinin roluna dair araşdırma", 2025).

Pedaqoqa dair tələblərin başqa bir bölgüsü T.A.Stefanovskayanın *Pedaqogika: elm və sənət* kitabında verilir.

*Orada qeyd olunur ki, müəllimə olan tələbləri şərti olaraq üç qrupa ayırmaq olar (Stefanovskaya, 1998):*

1. işgüzar keyfiyyətlər,
2. şəxsiyyət xüsusiyyətləri,
3. pedaqoji ustalıq.

*İşgüzar keyfiyyətlərə aşağıdakılar daxildir:*
– məqsədyönlülük,
– təşkiletmə bacarığı,
– tələbkarlıq,
– konkretlik və işgüzarlıq,
– ardıcıllıq və israr.

*Şəxsiyyət xüsusiyyətlərinə aiddir:*
– vətəndaş mövqeyi,
– mənəvi saflıq,
– prinsipiallıq,
– uşaqlara və pedaqoji əməyə sevgi,
– pedaqoji takt,
– pedaqoji optimizm,
– yaradıcı yanaşma.

Pedaqoji ustalıq – pedaqoqun pedaqoji əqidələrinə əsaslanan yüksək səviyyəli pedaqoji bacarıqlarıdır (Stefanovskaya, 1998).

*N.V.Kuxarevin Peşəkar kamilliyə doğru kitabında belə bir fikir vardır (Rəhimov və Hidayətzadə, 2025):*

"Tərbiyəçi öz tərbiyə olunanına yalnız özündə olanı verə bilər".

Bu səbəbdən pedaqoji ustalıq pedaqoqun psixoloji və pedaqoji hazırlığının yüksək səviyyəsi ilə və pedaqoji tapşırıqları optimal həll etmə qabiliyyəti ilə müəyyən olunur.

*Müəllimin spesifik (peşəkar) keyfiyyətləri (Cherepekhina, 2019):*

1. Pedaqoji erudisiya – pedaqoji vəzifələrin həlli üçün müəllimin istifadə etdiyi bilik ehtiyatıdır.
2. Pedaqoji məqsədqoyma – pedaqoji fəaliyyətin planlaşdırılmasına olan ehtiyac və pedaqoji vəziyyətdən asılı olaraq tapşırıqları dəyişməyə hazırlıq.
3. Pedaqoji təfəkkür – pedaqoqun situasiyaları müqayisə və təsnif etmək, səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək bacarığı. Buraya praktik, diaqnostik, analitik və diskursiv təfəkkür daxildir.
4. Pedaqoji intuisiya – müəyyən vəziyyətdə niyə məhz belə, başqa cür deyil, davranmaq lazım olduğunu müəyyən edən qabiliyyət. Bu qabiliyyət geniş təhlil aparmadan, ani pedaqoji qərar qəbul etməyə imkan verir.
5. Pedaqoji improvizasiya – gözlənilməz pedaqoji həll tapmaq və onu dərhal həyata keçirmək bacarığı.

*Buraya aşağıdakı mərhələlər daxildir:*
a) pedaqoji ilhamlanma,
b) ideyanın dərhal mənalandırılması və reallaşdırma yolunun seçilməsi,
c) ideyanın ictimai şəkildə həyata keçirilməsi,
d) improvizasiyanın davamı və ya tamamlanması barədə qərar.

6. Pedaqoji müşahidəçilik və zəif siqnalları görmə bacarığı – pedaqoji situasiyanın mahiyyətini kiçik, zahiri əlamətlərdən anlamaq.
7. Pedaqoji optimizm – fəaliyyətin müsbət tərəflərini görmək və ifadə etmək bacarığı.
8. Pedaqoji tapıntı qabiliyyəti – çətin pedaqoji vəziyyəti yenidən qurmaq və ona müsbət emosional ton vermək bacarığı.
9. Pedaqoji proqnozlaşdırma – uşağın reaksiyasını və davranışını əvvəlcədən görə bilmək bacarığı.
10. Pedaqoji refleksiya – özünü şüurlu şəkildə təhlil etmək qabiliyyəti.
    Refleksiya – müəllimin öz fəaliyyətinə və şəxsiyyətinə dair özünə müraciət etməsidir.
11. Pedaqoji özünüdərk – müəllimin özünü peşəkar kimi dərk etməsi.

*Buraya daxildir:*
a) peşə fəaliyyətinin norma və modellərini dərk etmək;
b) digər pedaqoqların bu keyfiyyətlərə malikliyini müşahidə edib özünü onlarla müqayisə etmək;
c) başqalarının pedaqoqu necə gördüyünü nəzərə almaq;

d) özünün ayrıca şəxsi xüsusiyyətlərini qiymətləndirmək və dərk etmək;
e) müsbət "Mən – konsepsiyası" yaratmaq.

Beləliklə, müəllimin peşəkarlığı – müasir mədəniyyətin dəyərləri və normaları, habelə pedaqoji texnologiyalara yiyələnmə səviyyəsi ilə müəyyən olunan çoxfaktorlu, fərdiləşmiş yaradıcı özünüreallaşdırma prosesidir ("Pedaqoji ünsiyyətin formalaşdırılmasında tərbiyəçi müəllimin rolu", 2025).

## Nəticə

Müəllimin peşəkar və şəxsi inkişafı yalnız təhsil keyfiyyətini deyil, eyni zamanda cəmiyyətin gələcək tərəqqisini müəyyən edir. Əsas və əlavə keyfiyyətlər, pedaqoji bacarıqlar, refleksiya və özünüinkişaf vasitəsilə müəllim gələcək nəsilləri yetişdirmək, onların sosial və mədəni inkişafına töhfə vermək imkanına sahib olur. Şəxsiyyətin davamlı formalaşması və peşəkar tərəqqi müəllimə situasiyalara çevik yanaşmaq, problemləri kreativ şəkildə həll etmək və pedaqoji fəaliyyətin nəticələrini proqnozlaşdırmaq qabiliyyəti qazandırır. Beləliklə, müəllimin şəxsiyyəti və bacarıqları həm təhsil sisteminin, həm də cəmiyyətin dayanıqlı inkişafı üçün əsas faktordur. Müasir cəmiyyət müəllimi yalnız bilik ötürən kimi deyil, həm də mədəniyyət daşıyıcısı, etik nümunə və kreativ lider kimi qəbul etməlidir.

*Bu mövzuda aşağıdakı təklifləri irəli sürmək olar:*

1. Pedaqoji universitetlərdə müəllimlərin şəxsiyyət və peşəkar bacarıqlarının inkişafını dəstəkləyən xüsusi proqramlar hazırlanmalıdır;
2. Müəllimlər üçün davamlı peşəkar inkişaf və təlim imkanları təmin edilməlidir;
3. Məktəblərdə mentorluq və pedaqoji müşahidə sistemləri tətbiq olunaraq gənc müəllimlərin təcrübəsi artırılmalıdır;
4. Təhsil siyasətində müəllimlərin mənəvi və intellektual inkişafını stimullaşdıran təşəbbüslər gücləndirilməlidir;
5. Pedaqoji fəaliyyətin effektivliyini qiymətləndirmək üçün müəllimlərin refleksiya və özünüinkişaf bacarıqları nəzərə alınmalıdır.

## Ədəbiyyat


1. Cherepekhina, O. (2019). Pedagogical competence of a teacher of psychology at a higher school: Structure and formation criteria. *Continuing Professional Education: Theory and Practice*.
2. Fernandes, S., Araújo, A. M., Miguel, I., & Abelha, M. (2023). Teacher professional development in higher education: The impact of pedagogical training perceived by teachers. *Education Sciences, 13*(3), 309. https://doi.org/10.3390/educsci13030309
3. Kariev, A., Rimantas, Ž., & Iskakova, M. (2023). The problem of professionalism of the personality of the teacher in psychological and pedagogical research. *Pedagogy and Psychology, 54*(1).
4. Khalmukhamedova, M. A. (2024). Professional qualities of a teacher. *European Science Methodical Journal, 2*(6), 211–215.
5. Peculiarities of formation of teacher's pedagogical skills and pedagogical techniques. (2025). *Academicia Globe: Inderscience Research, 6*(1), 32–42.
6. Pedaqoji ünsiyyətin formalaşdırılmasında tərbiyəçi müəllimin peşə keyfiyyətlərinin roluna dair araşdırma. (2025). *Məktəbəqədər və ibtidai təhsil, (1)*.
7. Pedaqoji ünsiyyətin formalaşdırılmasında tərbiyəçi müəllimin rolu. (2025). *İbtidai təhsil və təlim, 1*.https://ppe.journal.edu.az/frontend/uploads/files/M%C4%B0T%202025%20%E2%84%961.pdf?utm_source
8. Personal characteristics of the teacher in music teaching. (2024). *Pedagogical Cluster Journal of Pedagogical Developments, 2*(2).
9. Personal qualities of teachers as factors of their psychological well-being. (2020). *European Proceedings*.

10. Rəhimov, I., Hidayətzadə, T., & Mircəfərova, S. (2025, May). Müəllim şəxsiyyətinə dair pedaqoji yazılar. *Azərbaycan müəllimi* (Pedaqoji ünsiyyətin formalaşdırılmasında tərbiyəçi müəllimin peşə keyfiyyətlərinin rolu).
11. Şahin, Ç. (2025). Teachers' professional development: Opportunities and challenges in Türkiye. *International Journal of Professional Development, Learners and Learning, 7*(2), e2511.
12. Sims, S. (2021). What are the characteristics of effective teachers? *ERIC Document ED615914*.
13. Stefanovskaya, T. A. (1998). *Pedagogika: Nauka i iskusstvo*.
14. Tunyk Erlanqyzy, Z. (2025). Requirements for the modern pedagogical personality. *Eurasian Science Review*. https://eurasia-science.org/index.php/pub/article/view/394?utm_source
15. Ukrop, M., Švábenský, V., & Nehyba, J. (2018). Reflective diary for professional development of novice teachers (Preprint).

Daxil oldu: 04.08.2025
Qəbul edildi: 25.11.2025